**Bölgə teatrlarında**

# Atasının qatilini bağışlayan prokuror haqqında tamaşa

**Ulu öndər Heydər Əliyev deyib ki, dövlət iki şeydən sarsıla bilər: günahkar cəzasız qalanda və günahsıza cəza veriləndə. Nəcəf bəy Vəzirov adına Lənkəran Dövlət Dram Teatrı paytaxtdan bir qədər kənarda olsa da, orada baş verən hadisələrdən, yaradıcılıq prosesindən teatr camеəsi yaxşı xəbərdardır. Teatrın səsi-sədası həm qonşu ölkələrdən eşidilir, həm də hazırladığı uğurlu tamaşaların xoş sorağı paytaxtımıza qədər gəlib çıxır.**





Yeni mövsümdə artıq 3-cü ayını yaşayan Lənkəran Teatrı özünün 2-ci premyerasını sənətsevərlərə təqdim edib. Bu dəfə mərhum yazıçı, Əməkdar incəsənət xadimi Məmmədhüseyn Əliyevin “Prokuror” əsəri yenidən səhnəyə qoyulub. Bu tamaşa 41 il əvvəl mərhum rejissor, Əməkdar incəsənət xadimi Baba Rzayevin quruluşunda hazırlanmışdı. Səhnə əsəri o dövr üçün hüquq-mühafizə orqanlarına, ən əsası, prokurorluq fəaliyyətinə həsr olunmuş ilk iş idi. Tamaşada 1976–1987-ci illərdə Lənkəran rayonunun prokuroru vəzifəsində çalışmış Əməkdar hüquqşünas Tələt Qənbərovun prototipi canlandırılıb.

“Prokuror” səhnə əsərinin səhnəyə qoyulmasını quruluşçu rejissor, Əməkdar incəsənət xadimi Oruc Qurbanov öhdəsinə götürsə də, səhhəti ilə bağlı tamaşanı bitirmək imkanı olmadığı üçün bu iş teatrın baş rejissoru Anar Babalıya həvalə edilib. Tamaşanın quruluşçu rəssamı Fuad Babazadə, musiqi tərtibatçısı Miranda Qurbanovadır.

Birhissəli dinamik tamaşa cinayət faktı üzərində qurulub. Belə ki, gənc hüquqşünas Şöhrət Poladov Xınalı rayonuna prokuror təyin olunur. Orada baş vermiş cinayət işini çözmək barədə mühüm tapşırıq alır. Anası Surə xanım oğlunun bu təyinatına əsla sevinmir. Məlum olur ki, sən demə, onun əri illər öncə Xınalıda qətlə yetirilib, amma cinayətin üstü hələ də açılmayıb. Surə xanım nə qədər çalışsa da Şöhrəti yolundan döndərə bilmir.

...Tikinti trestində cinayət hadisəsi baş verib. Təqsirkar qismində istintaqa cəlb edilən şəxs – eyni zamanda illər öncə Şöhrətin atasının qətlinə bais olan Səlimxan həbsxanaya salınıb. Əsl cinayətkarları ifşa etməkdən ötrü rayon prokurorunun qərəzsizliyindən, peşəkarlığından çox şey asılıdır. Şöhrəti qarşıda çox çətin işlər gözləyir: bir yandan atasının ölümünün səbəbkarı Səlimxan, bir yandan isə günahsız Səlimxan. Gərgin və düyünlü cinayət işində son nəticə ibrətamiz olur: ədalət zəfər çalır. Prokuror Poladovun gərgin səyləri sayəsində cinayətin əsl səbəbkarları layiqli cəzasını alırlar. Və onun, bir növ, qan düşməni sayılan Səlimxan həbsdən azad edilir.

Rejissor Şöhrət Poladov rolunu gənc aktyor Saleh Əzimzadəyə həvalə edib. Bu obraz Salehin debütü idi. Xırda qüsurların üstündən keçsək, psixoloji məqamlarda özünü aparması, səhnə hərəkətləri, mimika və jestləri ilə gənc aktyorun ilk baş rolunun uğurlu alındığını söyləyə bilərik.

Digər rolları Əməkdar artist Sucəddin Mirzəyev (Səlimxan), Qızılgül Quliyeva (Sona), Allahverən Babayev (Şirəhməd), Hikmət Cəfərov (Əmirxanov), Şəbnəm Hüseynova (Sənəm), Vəfa Hacızadə (Surə), Emil Tağı (Almazov), Amil İbrahimli (Qəzənfər) və Teymur Hacızadə (polis) ifa ediblər.

Təbii ki, Anar Babalı Məmmədhüseyn Əliyevin əsərinin tamaşasına öz rejissor yozumunu verib. Sovet dövrünün sonlarında yazılan əsər dövrümüzlə səsləşir. Günümüzdə də həbs olunan vəzifəlilər var. Yəni mövzu aktuallığını itirməyib. Bəzən ölümü də “hədiyyə” ilə bağlayanlar olur. Amma öz vəzifəsinə vicdanla yanaşan Şöhrət Poladov kimi hüquq müdafiəçiləri də çoxdur. Onlar peşə və vəzifə borcunu, vicdanını hansısa “sovqat”a satan deyillər. Tamaşa boyunca eybəcər, mənfi hallarla bağlı seyrçilərə müəyyən mesajlar ötürülür. Yəni haqqı naziltmək də, üzmək də yolverilməzdir. Yerli-yerində olan mizanlar, fikirlərin, replikaların süni pafosdan uzaqlığı onun təsir gücünü artırır. Səhnə əsərinin uğurunun bir səbəbi də, elə işini maraqlı və fərqli edən bir cəhət də yersiz hay-küydən, pafosdan uzaq olmasıdır. Səhnədə baş verən proseslər həyatidir, günümüzlə səsləşir, reallığı əks etdirir.

Aktyor oyununda quruluşçu rejissorun seçdiyi ən mühüm məsələlərdən biri isə interaktivlikdir. Səhnədə fərqli manevrlər edən ifaçılar bizi adi oyun formalarından fərdi nümayişə dəvət edirlər. Onların bir-biri ilə təması təbii təsir bağışlayır, tərəf-müqabilin hansısa xırda səhvi elə ört-basdır edilir ki, tamaşaçı heç nə sezə bilmir. Bu, canlı oyunlar üçün müsbət haldır. Bədii ifadə üsulları, özünü doğruldan priyomlar əsərin uğurlu səhnə həllinə təminat vermiş olur.

Səhnə dekorasiyası da fərqlidir. Sadə, yığcam dekorasiyadan istifadə edən rejissor seçdiyi avadanlıqların əsərin başlıca ideyasına xidmət etməsini istəyib və bu, onda alınıb. Hər bir tamaşada musiqi də böyük təsiredici rola malikdir. Tamaşada səslənən musiqi parçaları, hadisələrin dramaturgiyası baxımından zövqlə seçilib. Musiqi quruluşu səhnə məkanına gözəl tərzdə hopur, “yamaq” olmur ki, bu da tamaşanın bədii dəyərini yüksəldir.

Sonda vurğulayaq ki, rejissor Anar Babalının “Prokuror”u Lənkəran teatrsevərlərinin rahat baxıb, asan başa düşməsi, peşəkar aktyor ifaları və səhnə həlli baxımından yetkin konsepsiyaya malik uğurlu əsər sayıla bilər.

Yeni tamaşalarda görüşmək ümidi ilə...

***Turan ETİBAROĞLU***